# İGİDLİYİN POVESTİ



Şəddad Cəfərovun “Nəsillərə nümunə” povestini “İgidliyin povesti” adı ilə ayrıca bir kitab halında çap etmək də olar. Çünki əsər indiki dövrümüzə görə çox aktual səslənir. Hərbi vətənpərvərlik baxımından bu əsərdə qoyulan ideyalar kifayət qədər dəyərlidir və əsaslıdır. Zənnimizcə əsərin əsas məğzini əhatə edən qəhrəmanlıq pafosu yaşarı bir duyğudur. Çünki qəhrəmanlıq olmadan, cəsarət nümunəsi göstərmədən müharibədə qalib gəlmək olmaz. “Cəsarət” deməkən oxucuların diqqətinə çatdırmaq yerinə düşərdi ki, müharibədə əsgər üçün ən önəmli silahın elə cəsarət olduğunu qeyd etməliyik. Cəsarət nə qədər genetik bir duyğu, hiss olsa da, hər halda ailə tərbiyəsindən, döyüşə hazırlıq mərhələsində komandirlərin təlimindən də bu hiss kifayət qədər qaynaqlanır. Yəni əskər təbiət etibarı ilə cəlddirsə, qoçaqdırsa, ona hazırlıq zamanı cəsarət hisslərini də mütləq aşılamaq lazımdır. Şəddad Cəfərovun “Nəsillərə nümunə” povestində də cəsarətə xüsusi önəm verilir. Baloğlan Rüstəmovun həyat yolu gözlərimizin önündən keçir. Biz onu artıq kifayət qədər tanıyırıq. Hətta müharibədən əvvəlki həyat yoluna da qədərincə bələdliyimiz var. Belə olan halda onun igid bir döyüşçü kimi ad çıxarması, qoçaqlığı ilə görünməsi gərək bizim üçün təəccüblü olmasın. Beləliklə, cəsarətin ilk sınağı ilə Baloğlan öz taleyində qarşılaşır. Paraşütdən tullanmaq, özü də dədə-baba diliylə desək, göyün yeddinci qatından özünü yerə buraxmaq asandırmı? Hətta özünü göydən yerə atanda ən kiçik, xırda bir səhv, texniki diqqətsizlik hər kəsə həyatı bahasına başa gələ bilər. Baloğlan üçün həmin anlarda yaşadığı hisslərin, duyğuların, düşüncələrin fərqi yox idi. Çünki o, yalnız bir amala öz varlığını tabe eləmişdi. Bu da Vətən hissi idi. İndi onun gözlərinin qabağında təyyarə lükunun açılmasından əvvəl közərən xəbərdarlıq işığı təkcə onun iradəsini sınağa çəkmirdi, həm də onun Vətən amalına nə qədər sadiq olub-olmadığının sınağı idi bu işıq.

Şəddad Cəfərovun qəhrəmanın hisslərini, duyğularını sözün gücü ilə oxucularına çatdırmaq məharəti kifayət qədər dərin psixoloji köklərə malikdir. Müəllif qəhrəmanın tərəddüdlərini də təbii verir. Hər halda o insandır. Həyatını, bundan sonrakı ömür yolunu da düşünür. “Nəsillərə nümunə” povestinin ən maraqlı məqamlarından biri də közərməyə başlayan lampanın işığında yaşanan ömür məqamlarıdır. Bu anların dəyəri bir ömrə bərabərdir. Bəlkə də yazıçılar qədər həmin anların dərinliyinə vara bilən qeyri bir şəxs ola bilməz. Bu mənada Şəddad Cəfərov öz qəhrəmanının ən çətin məqamdakı duyğularını bütün təbiiliyi ilə verə bilir və oxucusunu B.Rüstəmov kimi bir qəhrəmanın obrazını yaddaşında yaşadmağa təhrik edir. Əlbəttə, biz hələ “Nəsillərə nümunə” povestinin qəhrəmanı ilə göyün yeddinci qatında üz-üzəyik. Burada üç obraz var. Bir qəhrəmanın özü - B.Rüstəmov, bir müəllifin özü - Şəddad Cəfərov, bir də biz - yəni oxucu. Müəllifin məharətlə yaratdığı bu üçbucaq intizarla hadisələrin gedişatını izləyir. Ancaq icraçı bir nəfərdir. O Baloğlan Rüstəmovdur: “Qabaq hissədəki divarda lampa közərməyə başladı və fit səsi eşidildi. Təyyarə hündürlüyə qalxdı. İndi tullanmaq vaxtı idi.

Rüstəmov birinci cütlükdə gedirdi. Təyyarənin lükü açıldı. Kabinəyə kəskin mavi işıq şüası daxil oldu. O, ayaqlarını sallayaraq lükün küncündə oturdu. Çalışırdı ki, həyəcanlı olduğunu büruzə verməsin. Bax, bu da hündürlük. Aşağıda nazik hörümçək toruna oxşayan yollar, dayaz dərələrdə mavi kölgələr, evlər görünürdü. Baloğlan buradan tullanmağın çox asan olmayacağını başa düşdü. Onun əlləri hərəkətsizcəsinə lükun kənarına ilişdi, bədəni sanki daşa dönmüşdü. Başını çevirmədən, çəpəki baxışlarla ətrafa baxdı. Uşaqlar da həyəcanla ona tərəf baxırdılar. Rüstəmov başa düşdü ki, qorxsa ömrü boyu öz yoldaşlarının və komandirin yanında biabır olacaqdır. Necə edim ki, lənətə gəlmiş barmaqlarımı soyuq metaldan çəkim? Adama elə gəlirdi ki, təyyarənin dibi davamlı və rahatdır. Öz-özlüyündə - yəni buradan aşağı düşməliyəm? - deyə düşündü. Yuxuda olduğu kimi yerindəcə donub qaldı. Rüstəmov yuxuda nə qədər istəyirdisə, o qədər də uçurdu. Qorxulu olanda isə tez yuxudan ayılardı. Lakin bu yuxu deyildi. Baloğlan başını uşaqlara tərəf çevirərək gülümsəməyə çalışdı. Ona elə gəlirdi ki, artıq hər şey alındı. Təlimatçı başı ilə hərəkət etdi, əllərini isə dizlərinə sürtdü. Hər ikisi bir-birinə baxıb gülümsədi. Lakin o çox düzgün halda idi”. Nə qədər intizarlı məqamlardır. Müəllif bu məqamları təkcə bircə cümlə ilə ötüb keçə bilərdi. Ancaq o təsvirlərdə, qəhrəmanın düşüncələrinin yazıya gətirilməsində son dərəcə təmkinlidir. Asta-asta, amma kifayət qədər həyəcanla və emosianallıqla yoğrulmuş düşüncələri oxucunun yaddaşına həkk olunacaq gücdə təqdim edir. Çünki olum və ölüm məqamlarının sərhədləri arasında dayanmış qəhrəmanın taleyi təkcə onun özünə aid deyil. O həm də mənsub olduğu xalqı təmsil edir. Çünki kim hansı xalqa mənsubdursa, onun igidliyi, qəhrəmanlığı da həmin xalqın ünvanına yazılır. Şəddad Cəfərovun təsvirindən görürük ki, qəhrəmanın komandiri də onun gücünə, qüdrətinə kifayət qədər inanır. Ona görə də hətta ixtiyarı olduğu halda əmr vermir. Astaca onun çiyninə toxunur, bununla da ona inamını ifadə edir. Bildirir ki, hələ böyük döyüşlər qabaqda olsa da, Baloğlan Rüstəmov kimi cəsur bir döyüşçü bu andan etibarən qəhrəmanlıq mərhələsindədir. Döyüş onun gücünü göstərmək meydanıdır. Belə olan halda Baloğlan Rüstəmov sanki onu qapsamış düşüncələrdən xilas olur, bütün tərəddüdlər arxada qalır. Və o, çox böyük cəsarətlə onu gözləyən məchulluğa doğru atılır. Burada Şəddad Cəfərovun xüsusi həssaslıqla qəhrəmanın çiyninə toxunan əli xatırlatması oxucu yaddaşına həkk olunan bir cizgidir. Bu xırda bir detalla müəllifin öz qəhrəmanına güvənci göstərilir. İnsanların Vətən amalı uğrunda bir-birini təkcə bir əl toxunuşu ilə anlaması xüsusi bir psixoloji məqam kimi diqqətə çəkilir: “Rüstəmov çiyninə kiminsə əlinin toxunduğunu hiss etdi və irəliyə doğru əyildi. Lənətə gəlmiş paraşüt o qədər ağır idi ki, onu dartmaq olmurdu. Bir anda ağlına gəldi ki, birdən nəyə isə ilişə bilər və onu sökə bilər. Kəskin şəkildə irəli əyilərək paraşütü açdı və həmin anda başının üstündə paraşütün açıldığını gördü. Göyün üzü lap aydın idi, hər yerdə sakitçilik hökm sürürdü, təyyarənin gurultulu səsi eşidildi. Rüstəmov sevinclə aydın olmayan şəkildə nə isə qışqırırdı. Hər şey öz qaydasında gedirdi. Paraşütü yığmağa başladı. Paraşüt çox ağır parçadan hazırlandığı üçün onu yığmaq da çox çətin idi. Çətin yığılmasına baxmayaraq bu ağır kətan parçası necə də sözəbaxan idi. Yer sanki uçurdu. Elə bil hansısa zərbədən Rüstəmov yanı üstə yerə yıxıldı. Paraşüt asta-asta yerə düşdü. Rüstəmov cəld onun üstündən atıldı.

İkinci dəfə paraşütlə tullanmanı döyüşçülər başqa bir hündürlükdən etdilər. Bu, çox çətin idi. Əgər onu nəzərə alsaq ki, PD-41-in açılması üçün 60 metr tələb olunurdu və gözlərini açmamış artıq özünü yerdə görürsən, bu, əlbəttə, ikiqat məsuliyyət tələb edirdi. Rüstəmov da hamı ilə birlikdə həyəcanlanırdı. Demək olar ki, hər şey normal keçdi. Baloğlan birinci eşalonda atıldı. Baloğlan Rüstəmov hamı ilə birlikdə paraşütü təhvil verərək, aerodromda dayandılar. Onlar məşğələnin axırını gözləyirdilər”. Artıq biz bu barədə demişik. Təlim zamanı bütün çətinliklər son nəticədə əsgərin yerini, həm də qalib yerini müəyyən edir.

Şəddad müəllim “İgidliyin povesti”ni yaratmaqla gənc nəslə qəhrəmanlıq kitabı yazıb. İllər keçdikcə “Nəsillərə nümunə” adı ilə yayımlanan bu əsər öz oxucularının diqqətini həm də dəqiq döyüş səhnələrinin təsviri ilə cəlb edəcək. Çünki Şəddad Cəfərov B.Rüstəmovun hekayətində döyüş səhnələrini əsil şahid kimi təsvir edir. Burada biz işğalçıya qarşı döyüşən qüvvələri də görürük, işğalçının özünü də görürük. Olumu da görürük, ölümü də görürük. Müəllif sanki hər an fışqıran qanla oxucusunu üz-üzə qoyur. Oxucuya elə gəlir ki, mərmi elə indicə onun yanında partlayacaq. Biz artıq dəfələrlə qeyd etdiyimiz kimi axı Qarabağ müharibəsinin ən kəskin dövrünü yaşayırıq. Hətta mərmiləri Azərbaycanın müxtəlif şəhərlərinə, o cümlədən Abşerona da yaxın ərazilərdə mərdanəliklə qarşılayırıq. Əsərlə zaman nə qədər birbirinə yaxındır, doğmadır. Beləliklə, əsər bizi yenidən özünə çəkir. Biz öz yerimizi Şəddad Cəfərovun təsvirləri ilə istiqamətləndirir və özümüzü Baloğlan Rüstəmovun yanında görürük: “Həqiqətən də, irəlidə artileriya atışması başlamışdı. Ardınca isə minaatanların da səsi eşidildi. Bir qədər sonra bölüyün dayandığı yerdə bir neçə ağır artilleriya atəşinin səsi gəldi. Düşmənə cavab olaraq mövqelər üzrə ağır mərmilər atılırdı, lakin bu partlayışlar heç kimi tutmadı.Vaxt dayanmadan ötüb keçirdi. Artıq döyüşçülər irəliyə doğru hərəkət edirdilər. Düşmən tərəfindən açılan atəş döyüşçüləri tez-tez yerə əyilməyə məcbur edirdi. Belə vəziyyətdə taqımın istəristəməz sırası pozulurdu. Komandir atəşə baxmayaraq başını aşağı əymədən irəliyə doğru hərəkət edir və geridə qalanları da irəliyə doğru ruhlandırırdı.Bölük komandirinin əmri ilə döyüşçülər yerə uzandılar və sürünə-sürünə açıq səngərlərə doğru hərəkət etməyə başladılar. Təyyarəçilərimiz düşmən mövqelərini bombalayanda biz hücuma keçməli idik. Hücum xətti düşmən səngərindən əlli metr aralıda yerləşirdi. Taqım komandiri sürünə-sürünə gəlib çatdı. Öz durbinini uzadaraq bütün bölüklərə xəbər verilməsini tapşırdı. Durbinin məsafəni qısaldan okulyarı düşmən mövqeyini aydın göstərirdi. Oradan atəş səsləri eşidilirdi. Atəş açan faşist avtomatçısı idi. Səsdən komandir haradan atəş açıldığını təyin etdi. Əsgərlərə əmr verildi. Sakitliyi aviasiya gurultusu pozdu. Göyün üzündə sovet bombardmançıları şığıyırdılar. Pe-2, İ-16 qırıcılarının müşayiəti ilə hərəkət edirdilər. “Peşka” və “işaki”lərin ilk girişi birbaşa oldu. Taqımın əsgərləri yerə uzandılar. Onlara elə gəlirdi ki, bombalar onların üstünə tökülür. Partlayışdan bir qədər sonra onların qorxusu keçdi. Onları bağışlamaq olardı. Çünki bu döyüşçülər atəş səsi eşitməyib, həqiqi mərmi partlayışı görməyiblərvə döyüş təcrübələri yox idi. Təyyarələr dönərək ikinci çıxışa tərəf istiqamət aldı. Bu, hücumun aviasiya cəhətdən hazırlığı hesab olunurdu. Deməli, hücuma keçməyin vaxtı gəlib çatmışdı. Qızıl Ordu əsgərləri və Rüstəmov komanda gözləyirdilər. Artıq komanda verildi. Rüstəmov və onun silahdaşları irəliyə doğru atıldılar. Toplardan atəş açılmağa başladı. Cavab olaraq düşmən topları da bizim mövqelərə doğru atəş açırdı. Sağ və sol tərəfdən minalar partlayırdı. Döyüşün qızğın çağında seçmək olmurdu ki, düşmən gülləsi kimə dəydi, kimi həmişəlik şikəst etdi, kimi yerə yıxdı”. Döyüşü görənlər, onun dəhşətini yaşayanlar üçün ölüm çox vaxt adiləşir. İnsanlar ölümü çox gücsüz görürlər. Əlbəttə, bu qorxmazlar üçün belədir, qəhrəmanlar üçün belədir. Şəddad Cəfərov üçün də öz qəhrəmanını belə od-alovun içində qorxmaz kimi görməsi, onu bir igid kimi tərənnüm etməsi təbiidir. Çünki o, qəhrəmanının həyat yolunu çox dəqiq öyrənib. Qəhrəmanlıq dövrü öz mahiyyətinə görə hər vaxt var. Əlbəttə, B.Rüstəmovun qəhrəmanlıq dövrü 75 il bundan əvvələ aiddir. Ancaq hər dövrün öz qəhrəmanlığı olduğu üçün qəhrəmanların həyatı hər vaxt önəmlidir və öyrənilməlidir.

***(Davamı var)***